KREDO
№ 45-46 (1175-1176) 14 dekabr 2023-cü il
S.16

# XOŞBƏXT

*HEKAYƏ*



*VÜQAR ƏHMƏD*

*(Əvvəli ötən sayımızda)*

Gülbala maşının açarını şalvarının cibinə qoyub, pencəyinin qoltuq cibindən bir dəst pul çıxartdı və ordan bir əllilik seçib mollaya uzatdı:

-Deməli ali ruhani mədrəsəsini bitirmisən hə, axund müəllim.

Molla yenə onun üzünə baxmadan əlliliyi alıb cibinə qoydu:

-Hə, oranı bitirmişəm.

Gülbala pul dəstindən bir əllilik də ayırıb onun ləbbadəsinin cibinə basdı:

-Deyirsən ki, şeytana lənət oxuyurdun, hə?

Molla ona baxmadan gülümsədi: -Hə, əlbəttə!

Gülbala pul dəstindən bir əllilik də götürüb ona uzatdı:

-Axund müəllim, bir üzümə bax, gör mən doğurdan da eybəcərəmmi?

Molla əlliliyi alıb cibinə qoydu və zorla da olsa Gülbalanın üzünə baxıb ağlamsındı:

-Yox, nə danışırsan, sən lap dünya gözəlisən. Mən ömrümdə bu cür yaraşıqlı oğlan görməmişəm. Hüsnünə baxdıqca doymaq olmur.

Bu yerdə Gülbala da ağlamsındı: -Bəs onda niyə bu insanların məndən zəhləsi gedir, mən onlara neyləmişəm ki?!

Molla ağlamsına-ağlamsına özünü gülümsəməyə məcbur etdi: -Vay-vay.. Heç bu cür oğlanı da istəməzlər?! Yəqin onlar sənə paxıllıq eləyirlər oğlum.

Gülbala ona bir əllilik də uzatdı: -Hə, indi mənə çatdı ki, nəyə görə bu xalq məndən xoşlanmırmış. Çox sağ ol Axund müəllim, vaxt gələr yenə görüşərik.

Gülbala bunu deyib molladan uzaqlaşdı. Molla isə bir kənara çəkilib zülüm-zülüm ağlamağa başlayıb bir neçə dəfə eyni sözləri təkrar elədi:

-Heç bu cür yaraşıqlı oğlandan da iyrənərlər?! Axmaq adamlar!O ki, gözəllik mücəssəməsidi.

Gülbala molladan ayrılıb maşınına tərəf getdi, lakin bu vaxt bir qızın çığırtısı onun diqqətini çəkdi:

-Kömək eləyin, kömək eləyin, Allah xatirinə, nə olar, mənə kömək eləyin!

Gülbala səs gələn tərəfə nəzər saldı. Nəhəng bir bəd it gənc bir qızı divara qısnamışdı, iyrənc-iyrənc hürürdü və yəqin ki, bir qədər də keçsəydi qızı parçalayacaqdı. Ətrafdakılar isə qıza kömək eləməkdənsə, bəd köpəyin onları da dişləyəcəyindən qorxub ordan bir az da uzaqlaşırdılar. Əslində bu dünyada heç nədən qorxmayan Gülbala ildırım sürətilə qaça-qaça maşınının yük yerini açıb ordan mantirovka götürdü və kölgədən də iti sürətlə özünü hadisə yerinə yetirdi, köpəyin yiyəsi saçlarını çiyninə tökmüş, qulaqlarında sırğa, şalvar əvəzinə balet oynayanların retuzundan geyinmiş, ağzı qulağının dibinə çatan, özü də cinsiyyəti və milliyəti bilinməyən bir gənc idi. Qorxudan gözləri hədəqəsindən çıxan yazıq qıza baxıb dişi pişiklər kimi hırıldayırdı. Gülbala ani olaraq ona nəzər salıb dilləndi:

-Nəyə gülürsən alə, matişkə?

Sonra gözün tuta bilmədiyi bir şəkildə mantirovkanı qaldırıb artıq qıza diş atmaq istəyən itin təpəsinə endirmək istədi. Lakin buna ehtiyac olmadı, bəd köpək Gülbalanın sifətini görüncə pələng görmüş kimi zingildəyib sürətlə qaçdı. Matişkə də canı itinin qaçdığını görüb, şarik, şarik,-deyərək onun arxasıyca götürüldü.

Gülbala onların arxasınca bir qədər nəzər salıb üzünü qıza çevirdi. Qızın rəngi meyit kimiydi, o çənə atırdı. Gülbala ətrafa göz yetirib köksünü ötürdü:

-Bu insanlar niyə belə xarab olublar görəsən?! Daha heç kimdə vicdan deyilən şey qalmayıb.

O, bunu deyib hələ də tir-tir titrəyən qıza baxdı:

-Bərk qorxdun, hə?

Qız cavab verməyib başını tərpətdi. Gülbala yenə yardımını təklif etdi: -Mən maşınlayam. İstəyirsən bu yaxınlıqda xəstəxana var, səni ora götürüm.

Qız başını buladı və onun səsi zarıltıya bənzədi:

-Yox, mümkünsə məni evimizə götürün, yəqin anam bərk nigarandır.

Gübala başını tərpətdi: -Hə, əlbəttə!

Maşına minəndən bir qədər sonra arxada oturan qız bir xeyli özünə gəlmişdi və Gülbala ona sual verməmdən sözə başladı:

-Bilmirəm sizə necə təşəkkür eləyim, siz olmasaydız indi yəqin o biri dünyadaydım.

Gülbala güzdüdən qıza nəzər saldı: -Sən o mütrübü tanıyırsan?

Qız çox ağıllı qız idi, odur ki, Gülbalanın kimi nəzərdə tutduğunu dərhal başa düşdü:

-Neçə vaxtdı arxamca düşüb, əl çəkmir ki, çəkmir. Mən bu yaxınlıqdakı kollecdə oxuyuram, artıq axırıncı kursdayam, hər gün dərsdən çıxanda qır-saqqız olub yapışır yaxamdan. Dünən dedi ki, əgər təklifimi qəbul eləməsən, üstünə bəd köpək gətirəcəyəm və dediyini də elədi.

Gülbala qəzəblə dilləndi:

-Narahat olma, bundan sonra o sənin həndəvərinə belə yaxınlaşmayacaq, əgər yaxınlaşsa, onun saçlarını qırxıb' başını keçəl eləyərəm.

Bayaqdan gənc bir qızı bəd köpəyin dişindən xilas etmək həyəcanı yaşayan Gülbala, yalnız indi, özü də güzgüdən qızın qənirsiz bir gözəl olduğunu duydu. Möcüzə isə burasında idi ki, qız Gülbaladan nəinki iyrənmirdi, əksinə ona bir qəhramana baxan kimi baxırdı.

Bundan sonra qızgilin evinə çatana qədər sükunət hökm sürdü. Qızgilin mənzilinin yaxınlığına yetişəndən sonra Gülbala maşından düşüb qız üçün qapını açdı. Qız maşından düşüb üzünü Gülbalaya tutdu:

-Mənim adım Jalədir. On səkkiz yaşım var. Bəs sizin adınız nədir?

Gülbala dərindən ah çəkdi:

-Gülbala. Mənim qırx üç yaşım var.

Burda Jalənin səsi ney avazına bənzədi:

-Siz doğurdanda gül kimisiz. Qırx üç yaşınız var, amma mən sizə iyirmi yaş verdim.

Gülbala sağ barmaqlarıyla sol qolunu çimdiklədi. Yox, bu yuxu deyildi, gerçək idi. Lakin yenə də yuxuda olmadığına inanmaq üçün sağ əlinin dırnağı ilə sol əlinin üstünü cızdı, ağrını duyub qıza üzünü tutdu:

-Sənin bu sözlərin məni ərşi-əlaya qaldırdı. İndiyə qədər solmuş gül idim, amma indi sanki anadan yenidən doğuldum.

Gülbala bunu deyib udqundu: -Jalə, mənim anamın gəlini olarsanmı?

Jalə sanki bunu gözləyirmiş kimi başını tərpətdi:

-Əlbəttə! Mən sənə, xilaskarıma çox borcluyam, artıq sənin hər sözün mənim üçün qanundur Gülbala.

Gülbala hələ universitetdə təhsil alarkən bir gün quş olub uçacağına inanmışdı, indi isə onun xəyalı gerçəyə çevrilmişdi, o uçurdu, özü də qanadı olmadan sevda səmalarında pərvaz edirdi. Həm də daha nəinki alim olmaq istəmirdi, alim olmadığına görə Allahına şükür edir və düşünürdü ki, əgər professor Maqsud Məlikzadə bayaq onu kabinetindən qovmasaydı, bu dünya gözəlinə rast gəlməyəcəkdi, cibi pulla oynasa da həyatı da qırx üç yaşına qədər keçdiyi kimi, üzüntü, sıxıntı içində keçəcəkdi.

Jalənin valideynləri yeganə qızlarının quduz köpəyin dişindən xilas etmiş adama ərə getməyinə etiraz etmədilər, odur ki, elçilər, yəni Gülbalanın anası Xavər, xalası Dilarə olduqca şən halda, sevinə-sevinə geri döndülər.

Jalə ilə Gülbalanın toyuna əksəriyyəti Gülağanın üzündən mindən yuxarı qonaq gəlmişdi. Toyda ən məhşur musiqiçilər qonaqları əyləndirirdilər. Hər şey əla idi, lakin qonaqların əksəriyyətini narahat edən Jalə kimi gənc və qənirsiz bir gözəlin Gülağa kimi idbarla ailə qurmasına razılıq verməsi idi. Odur ki, qonaqların arasındakı pıça-pıç qəfil qopan tufan uğultusu kimi əks-səda verirdi. Lakin Gülbala üçün bunun qəiyyən əhəmiyyəti yox idi, o dünya gözəli ilə evlənirdi, özü də qızın cəmisi on səkkiz yaşı var idi. O, çox xoşbəxt idi. Gənc qız müğənni isə qəlblərə məlhəm səsi ilə oxuyurdu...

*2023*